***Azərbaycan inkişaf və tərəqqi yolundadır. İllərimiz ölkəmiz, xalqımız üçün bir-birindən xoş müjdələr ilə gəlir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirdi ki, 2021-ci il ölkəmiz üçün uğurlu il olmuşdur.***

Təqdirəlayiq haldır ki, ötən il ərzində qarşıya qoyulan bütün məqsədlərə nail olunmuşdur. Azərbaycan uğurla inkişaf edir və bu gün dünyada güclü dövlət kimi tanınır. Son illər Azərbaycan beynəlxalq arenada öz mövqelərini çox möhkəmləndiribdir. Prezident İlham Əliyev bu barədə demişdir: "Bizim beynəlxalq nüfuzumuz artdı, bir neçə beynəlxalq təşkilat çərçivəsində uğurla fəaliyyət aparmışıq. Bildiyiniz kimi, Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin maraqlarını müdafiə etmişik, beynəlxalq hüququn norma və prinsiplərini müdafiə etmişik və təsadüfi deyil ki, Qoşulmama Hərəkatına üzv ölkələrin hamısı yekdilliklə Azərbaycanın sədrliyini daha bir il uzadaraq bizə böyük etimad göstərdi. BMT-dən sonra ikinci ən böyük təsisat, 120 üzvü olan təsisat Azərbaycana yekdilliklə bir daha öz dəstəyini ifadə etmişdir".

# İllər ölkəmiz üçün bir-birindən uğurlu gəlir




Yeri gəlmişkən, Azərbaycan ötən il digər nüfuzlu beynəlxalq təşkilatlarda, o cümlədən yeni yaradılan Türk Dövlətləri və İslam Əməkdaşlıq təşkilatlarında fəal surətdə təmsil olunmuşdur. Əlamətdar haldır ki, NATO öz zirvə görüşlərində daim Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişdir. Dövlətmizin başçısı demişdir: "Doqquz zirvə görüşündə bu qətnamələr qəbul edilmişdir. Bu dəfə də bu dəstək ifadə olundu. Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşünün yekununda qəbul edilmiş yekun sənəddə ölkələrin ərazi bütövlüyü, suverenliyi bir daha dəstəklənir".

Bu gün bütün dünya İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul edibdir. Bu, əlbəttə, Azərbaycan diplomatiyasının böyük uğurudur. Azərbaycanın qardaş Türkiyə, qonşularımız Rusiya, İran və Gürcüstanla dostluq və tərəfdaşlıq əlaqələri daha da inkişaf etmişdir. Görünən budur ki, hazırda regionda çoxtərəfli əməkdaşlıq platformu formalaşır. Bu, bizim maraqlarımıza cavab verir.

Azərbaycan İkinci Qarabağ müharibəsində tarixi qələbə qazanmışdır. Azərbaycan xalqı artıq dünyada müzəffər xalq kimi, Azərbaycan dövləti isə müzəffər ölkə kimin tanınır. Bu gün Azərbaycan dövləti və xalqı əl-ələ verib işğaldan azad edilmiş ərazilərdə böyük tikinti-quruculuq, bərpa işləri aparır. Bu işlərin miqyası və surəti heyranlıq doğurur. Azərbaycanın bütün regionları bu gün sürətlə inkişaf edir. Dövlətimizin başçısı ötən il bölgələrə 47 dəfə səfər edibdir, bu səfərlərin 32-si azad edilmiş torpaqlara olan səfərlərdir. Cənab İlham Əliyev təkcə Şuşa şəhərini 7 dəfə ziyarət edibdir. Bu gün ölkəmizin hər yerində genişmiqyaslı işlər aparılır.

Ötən il Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edibdir. 2021-ci ilin 11 ayında sənaye istehsalı 5,5 faiz, qeyri-neft sektorunda sənaye 20,7 faiz artıb. Valyuta ehtiyatlarımız 2,2 milyard dollar yüksəlib. Ticarət əlaqələrimizin müsbət saldosu 9,4 milyard dollardır. Xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun cəmi 17 faizini təşkil edir və bu il ərzində həm mütləq rəqəmlərdə, həm ümumi daxili məhsula nisbətdə xarici dövlət borcu azalıb. Bu rəqəmlərin hər birinin arxasında düzgün idarəçilik və çox sayda əmək kollektivlərinin fədakar əməyi dayanır.

Bəli, illər bir-birini əvəz etdikcə, Azərbaycan xalqının rifahı durmadan yaxşılaşır. Dövlətimiz əhalinin bütün kateqoriyalarından olan insanların, xüsusilə əlil və şəhid ailələrinin, müharibə veteranlarının pensiya və müavinətlərinin artırılmasını təmin edir. Bu il pensiya və müavinətlər nəzərəçarpacaq dərəcədə artırılıbdır. Azərbaycan vətəndaşı dövlətin qayğısını daim öz üzərində hiss edir. Buna görə də o, özünün, ailəsinin, dövlətinin sabahına böyük inam ümidlərlə baxır.

***Habil NİFTALI,***
***"Optimist" Sosial Problemlərin Həllinə Yardım" İctimai Birliyinin sədri***